# Azərbaycan qadınları ictimai-siyasi fəallıqları ilə daima seçilib



**Azərbaycan qadını mənəvi təbiətinə sadiq qalaraq, zərifliyin, ülviliyin və gözəlliyin rəmzi olan adının ucalığını həmişə layiqincə qoruyub saxlamışdır. Tarix boyu o, özünün müdrikliyi, işgüzarlığı və saflığı ilə keçmişimizə parlaq səhifələr yazmışdır. Milli-əxlaqi dəyərlərimiz, mədəni-tarixi irsimiz və xalq adət-ənənələri xəzinəmiz məhz dilimizin saflığı keşiyində şərəflə dayanan nənələrin, anaların sayəsində mürəkkəb dövrlərin tələb və sınaqlarına qalib gələrək, bu günədək yaşamaqdadır. Dünyanın bir çox ölkələrinin qadınlarından fərqli olaraq Azərbaycan qadınlarının mədəni səviyyəsi və intellektual potensialı yüksəkdir. Fərəhli haldır ki, gənc xanım və qızlarımız hər bir sahədə öncül sıradadır.**

Vurğulamaq lazımdır ki, Azərbaycan qadını öz iradəsi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynayır.

Qadınlar bu gün cəmiyyətin bütün sahələrində—elm, mədəniyyət, sənaye, kənd təsərrüfatı sahələrində misilsiz hünər göstərirlər.

Ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyev qadınlarımıza həmişə xüsusi qayğı və diqqət göstərmişdir. Heydər Əliyev "Azərbaycan qadınlarının rolunun artırılmasına dair tədbirlər haqqında" sərəncam və "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman imzalamışdır. Ulu öndər fəxri adlara layiq görülmüş insanlar arasında qadınlara daha çox üstünlük vermiş, elm, mədəniyyət və incəsənət xadimləri Prezident təqaüdünə layiq görülmüşlər.

Ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin respublikamıza rəhbərliyi ilə ölkəmizin iqtisadiyyatı gündən-günə güclənir, Azərbaycan inkişaf tempinə görə dünyada lider mövqedə dayanır.

Ölkəmizin birinci xanımı, millət vəkili, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu respublikamızda geniş-miqyaslı sosial proqramlar həyata keçirir, hər il fondun xətti ilə yeni məktəblər tikilir, uşaq evləri təmir edilir, yeni avadanlıqlarla təchiz olunur, kimsəsizlərə, ehtiyacı olanlara qayğı göstərilir.

YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva cəmiyyətdə qadınların oynadığı mühüm rol barədə demişdir: *"Azərbaycan qadınları həyatın bir çox sahələrində əldə etdikləri uğurlarla haqlı olaraq fəxr edirlər. Tarix boyu Azərbaycanda mədəniyyətimizin, milli dəyərlərimizin, adət-ənələrimizin qorunub saxlanılmasında qadınların misilsiz xidmətləri olubdur. Azərbaycanda qadın və ana hər zaman müqəddəs sayılıbdır".*

Ölkəmizdə qadınlara göstərilən diqqətin nəticəsi kimi 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Azərbaycan qadını bu gün cəmiyyətimizdə özünəlayiq ən yüksək mövqedə dayanıb. Ölkəmizin ictimai-siyasi və mədəni həyatında fəal iştirak edir. Qadınlarımız Azərbaycanı dünya miqyasında layiqincə təmsil edir. Azərbaycan qadınının səsi bu gün dünyanın ən uca tribunlarından gəlir. O, haqq səsini ucaldaraq Azərbaycan həqiqətlərini dünyaya çatdırır. Hazırda ölkəmizdə əhalinin təxminən 51 faizini təşkil edən Azərbaycan qadınları özlərinin ictimai-siyasi fəallığı, Vətənə sədaqəti, ailəyə bağlılığı və fədakarlığı ilə bütün dünyada seçilir.

Bakının Nərimanov rayonunda elə bir sahə olmaz ki, orada qadınların fəallığı, işgüzarlığı nəzərə çarpmasın. Onlar sosial-iqtisadi vəzifələrin həyata keçirilməsinə maksimum səy göstərirlər. Fərəhlə qeyd etmək olar ki, rayonun səhiyyə, təhsil sahəsində çalışanların 52 faizini qadınlar təşkil edir.

8 Mart hər il qadınların bayramı kimi qeyd olunur. Hər cür hörmətə, sevgiyə layiq olan Azərbaycan qadınlarını bayram münasibətilə təbrik edirəm. Qoy bahar fəslinə təsadüf edən bu bayram həmişə qadınlarımıza bolbol sevinc bəxş etsin, ömrünüz bahar təravətli olsun!

**İradə MAHMUDOVA,**
**Nərimanov Rayon İcra Hakimiyyəti başçısının müavini.**